**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÇAĞDAŞ DÖVR TÜRKİYƏ NƏSRİNDƏ TARİXİLİK VƏ MÜASİRLİK (İSGƏNDƏR PALANIN ROMANLARI ƏSASINDA)

İxtisas: 5717.01- Türk xalqları ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Sevinc Əli qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Disertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Aydın Müstəsəb oğlu Abıyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Əsgər Adil oğlu Rəsulov**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Lamiyə Sabir qızı Rəhimova**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Səkinə Allahverdi qızı Qaybalıyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.18 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Gövhər Baxşəli qızı Baxşəliyeva**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Xanımzər Əli qızı Kərimova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Türkiyə nəsri ümumtürk bədii yaradıcılıq prosesindən kənarda formalaşmayıb, onun davamı və tərkib hissəsidir. Çağdaş türk nəsri qədim dövrlərdən, xüsusilə orta əsrlərdən gələn ənənənin davamı, yenilənməsi, yeni formalarla özünün təsdiqidir.

İlkin kökləri qədim bədii təsvir nümunələrinə, Orxon-Yenisey mətnlərinə, şifahi xalq ədəbiyyatına dayanan Türkiyə nəsri orta əsrlərdə xeyli dərəcədə ərəb və fars dillərinin, ümumislam mədəniyyətinin və elminin, çağdaş dövdə isə Qərb ədəbiyyatının təsirinə məruz qalmışdır.

Avropa ədəbiyyatında roman janrının tarixi orta əsrlərdən, Türkiyədə isə XIX əsrdən başlanmışdır. Bu dövrdən etibarən ədəbiyyatda Avropa romanlarının təsiri altında yeni nəsr nümunələri formalaşmışdır.

Türk roman yaradıcılığı hal-hazırda məzmun və çeşid baxımından rəngarəngliyi ilə seçilir. Artıq türk ədəbiyyatında tarixi, psixoloji, fəlsəfi, fantastik, postmodernist romanlardan bəhs etmək mümkündür. Bu romanlar ədəbiyyatla tarixin kəsişdiyi, müəllif tərəfindən tarixi qaynaq və məxəzlərə daha çox baş vurulduğu, oxuculara tarixi məlumatların verilməsi kimi məqsədi də qarşısına vəzifə qoyduğu, subyektiv münasibətin də yer aldığı bədii əsərlərdir.

Türkiyə ədəbiyyatşünaslığında tarixi romanlar haqqında tədqiqat işlərinin sayı çoxdur, ayrı-ayrı tədqiqatçılar tərəfindən tarixi roman janrının müxtəlif problemləri ilə əlaqədar araşdırmalar aparılmışdır. Azərbaycan türkologiyasında isə bu məsələ ilə bağlı araşdırmaların sayı azdır və elmi problem kimi diqqəti cəlb edir.

Tədqiqat işində türk ədəbiyyatı və bədii nəsri ilə bağlı Azərbaycan türkoloqlarının, xüsusilə Aydın Abıyev, Aqşin Babayev, Tofiq Məlikli, Əsgər Rəsulov, Elman Quliyev, Sədaqət Qasımlı, Nurlanə Mustafayeva, Qəmər Alxanova, Əhməd Əhmədov, Eşqanə Babayeva, Xanım Abdullayeva, Ülkər

Səmədova, Lalə Qasımova, Murad Dəyər[1] kimi mütəxəssislərin adlarını qeyd etmək mümkündür, çünki onların elmi araşdırmalarında bilavasitə türk nəsrindən və romançılığından bəhs edilir.

Mövzu ilə birbaşa əlaqəsi olmasa da, digər alimlərin də - Nuşabə Araslı, Azadə Musayeva, Jalə Əliyeva, Səriyyə Gündoğdu, Maarifə Hacıyeva, Xalidə Quliyeva-Qafqazlı, Barat Osmanova, Elmira Məmmədova, Səkinə Qaybalıyeva, Lamiyə Rəhimova, Rəşid Quliyev, Emilya Xəlilova, Cabbar Bəydilli, Şükufə Qədimova, Füzuli Bayat, Nizami Cəfərov, Orucəli Həsənov, Hüseyn Həşimli, Xuraman Hümmətova, Aydan Xəndan[2] və başqalarının elmi tədqiqat

---

[1] Abıyev A.M. Türkiyə ədəbiyyatı tarixi. 3 cilddə, II cild (II hissə). Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2007, 279 s., Бабаев, А. Очерки современной турецкой литературы. Москва: Восточная литература, 1959, 242 с, Меликли Т. Литература Турции: корни и крона. Москва: РИК Русанова, 1998. 195 с.; Melikli T. Türkoloji və filoloji problemlər . Bakı: Elm və Təhsil, 500 s., Rəsulov Ə. Türk sənədli-bədii nəsri. Bakı: Elm, 2004, 428 s., Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: "Conatant empary", 2011, 568 s., Türkyə türk ədəbiyyatı (XIX-XX əsrlər) . Bakı: Orxan Nəşriyyatı, 2003,122 s., Qasımlı S. Haldun Tanerin bədii nəsri . Bakı: Bilik "İrşad" Mərkəzi, 1994, 124 s., Mustafayeva N. Səbahəddin Əli nəsrinin poetikası N.Mustafayeva. Bakı: Mütərcim, 2017. − 192 s., Alxanova Q. Türk ədəbiyyatında psixoloji roman: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / − Bakı, 2018. − 29 s., Əhmədov Ə. Rəşad Nurinin romanları / Ə.Əhmədov. − Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, − 1965. − 170 s., Babayeva E. 1920-1940-cı illər türk romanında bədii konflikt:/ elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı/ - Bakı, 2021. – 53 s., Abdullayeva, X. XIX Əsr türk ədəbiyyatındaroman janrının təşəkkülü və inkişafı: /filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / − Bakı, 2022. − 28 s., Səmədova Ü. Tənzimat dövrü türk nəsrinin formalaşmasında qərb ədəbiyyatının təsiri:/ filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / − Bakı, 2021. − 29 s., Qasımova L. XX əsrin II yarısından sonra türk hekayəçiliyində ənənə və novatorluq (Mustafa Kutlunun yaradıcılığı əsasında ): Fil. üzrə fəl.dok...dis.avtoref. Bakı, 2014, 26 s., Dəyər M. Türkiyə və Azərbaycan ədəbiyyatında tarixi roman janrı (Samiha Ayverdi və Əzizə Cəfərzadənin yaradıcılığı əsasında) / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası − Bakı: 2015. − 155 s.

[2] Araslı N. Nizami və türk ədəbiyyatı. Bakı: Elm, 1980, 205 s., Rüstəmova A. Mövlana Cəlaləddin Rumi. Bakı: Elm, 2005, 176 s., Əliyeva J. Dünyanın tanıdığı Füzuli. Bakı: Çaşoğlu, 2010, 140 s., Gündoğdu S. Mehmet Akif Ersoy

işləri ilə tanış olaraq yeri gəldikcə fikir və mülahizələrini diqqətə almışıq.

Ümumiyyətlə, dissertasiya işində həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatşünaslığındakı mövcud elmi-nəzəri fikirlərə istinad edilmiş, hər iki ölkə filologiyasının müxtəlif mərhələlərdə aparılmış araşdırmaların nəticələri təhlil edilmişdir.

Türkiyə ədəbiyyatşünaslığında da tarixi roman mövzusu bir çox elmi tədqiqatların başlıca probleminə çevrilmiş, bir neçə dissertasiya işi yazılmışdır. Bu baxımdan bizim də faydalandığımız araşdırmaçıların tədqiqat işlərini qeyd edə bilərik: H.Argunşah "Türk ədəbiyyatında tarixi romanlar" (Türk tarixi ilə bağlı), Kırılmış İ. "Türk ədəbiyyatında tarixi romanlar"(Türk tarixi ilə bağlı, 1951-1960), R.Topdəmir "Türk ədəbiyyatında tarixi romanlar" (Türk tarixi ilə bağlı, 1971-1980)[3] və s.

Çağdaş dövr Türkiyə nəsrində tarixilik və müasirlik problemi ədəbiyyatşünaslığın vacib məsələlərindən biri kimi diqqəti cəlb edir. Tarixi romanların sayının artması onların araşdırılmasını da aktuallaşdırır, tarixi fakt və hadisələrə müasir yanaşmaların prinsiplərini müəyyənləşdirməyin gərəkliliyini ortaya qoyur.

Məsələnin elmi araşdırılmasına ehtiyac həm də ondan doğur ki,

---

yaradıcılığında ictimai problemlərin bədii təcəssümü. Bakı: R.M. Kompani, 2012, 228 s., Cəfərov N. Türk xalqları ədəbiyyatı. 4 cilddə, I c.Bakı: Çaşıoğl, AzAtaM, 2006, 320s., Bəydilli C. Cümhuriyyətdən sonra Türkiyədə ədəbi cərəyanlar. Şərq filologiyası məsələləri (5-ci buraxılış). Bakı: Bakı Çap Evi, 2010, s.447-462, Məmmədova E. Osman Türkayın poetik irsi. Bakı: Elm, 2010, 256 s., Bayat F. Türk təkkə ( təsəvvüf ) ədəbiyyatı. Bakı: Elm və təhsil, 2011, 440 s., Həsənov O. Tarixilik və müasirlik. Bakı: Yazıçı,1985,160 s., Həşimli H. Azərbaycan ədəbi mühiti və türk dünyası. Bakı: Mütərcim, 2009, 198 s., Hümmətova X.Yunus Əmrə. Bakı: Elm və təhsil, 2012, 240 s., Rəhimova L. Süleyman Çələbi Bursalının "Vəsilətün-nicat" əsərinin tekstoloji tədqiqi və elmi tənqidi mətni. Bakı:Nurlan, 2006, 408 s., Xəndan A. Yəhya Kamal Bəyatlı yaradıcılığında sənətkarlıq xüsusiyyətləri. Bakı: Nurlan, 2002, 148 s., Qaybalıyeva S. Əbdüllətif Bəndəroğlunun ədəbi-elmi fəaliyyəti: filologiya üzrə fəlsəfə doktoru dissertasiyası / Bakı, 2011. − 167 s

[3] Argunşah H. Türk Edebiyatında Tarihi Roman. İstanbul: Marmara Üniversitesi Doktora Tezi,1990,432 s, Kırılmış İ. T. Türk Edebiyatında Tarihi Romanlar (Türk Tarihi ile İlgili,1961-1965). İstanbul Üniversitesi, Doktora Tezi,2007,1135 s., Topdemir R. Türk Edebiyatında Tarihi romanlar (Türk Tarihi ile İlgili,1971-1980). İstanbul: İstanbul Universiteti, Doktora Tezi,2005,765s.

İsgəndər Palanın müəyyən tarixi romanlarının mövzuları və roman qəhrəmanları Azərbaycanla bağlıdır. Səfəvi tarixi, Şah İsmayıl, Şah Təhmasib kimi tarixi şəxsiyyətlərimizin bədii obrazlarına İ.Pala yaradıcılığında rast gəlinməsi, həmin romanlarda Azərbaycan tarixinə və hökmdarlarına yazıçının özünəməxsus münasibətinin də yer alması, mövzunu daha da aktuallaşdırır.

İ.Palanın roman yaradıcılığının əsasında türk romanının inkişaf tarixinin öyrənilməsi, mövzu və qaynaqlarının müəyyənləşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Tematika əlvanlığı içərisində Osmanlı və ümumtürk tarixinə daha çox müraciət olunması türk romançılığı üçün səciyyəvi olsa da, İ.Pala qələmində daha çox birincinin yer alması məhz bu tədqiqat zamanı üzə çıxır.

İ.Pala yaradıcılığı indiyə qədər Azərbaycan türkologiyasında ayrıca dissertasiya mövzusu olaraq araşdırılmamışdır. Türkan Əliyeva tərəfindən "Türk romanında ənənəvi Şərq və modern Qərb təkiyyəsinin sinkretizmi( Əlif Şəfəq və İskəndər Palanın yaradıcılığı əsasında)" adlı dissertasiya işi bu baxımdan istisna olsa da, tədqiqat obyektindən bəlli olduğu kimi Ə.Şəfəq və İ.Pala yaradıcılığı müqayisəli şəkildə araşdırılmışdır[4].

Türkiyə ədəbiyyatşünaslığında isə onun yaradıcılığı müxtəlif dissertasiyaların tədqiqat mövzusuna çevrilmişdir. 2013-cü ildə Mustafa Onur Bozkuşun "İsgəndər Palanın romanlarında gerçəklik və təxəyyülün əlaqəsi" ("İskender Pala'nın romanlarında gerçek ve kurmaca ilişkisi"), 2014-cü ildə Əminə Boso Yamanın "İsgəndər Palanın roman və hekayələrində struktur və mövzu" ("İskender Pala'nın roman ve öykülerinde yapı ve tema")[5] kimi dissertasiyalarda yazarın nəsri ədəbiyyatşünaslıq elmi istiqamətində
öyrənilmiş, filologiya elminin yeni yanaşmaları əsasında tədqiq edilmişdir.

---

[4] Əliyeva T. Türk romanında ənənəvi Şərq və modern Qərb təhkiyəsinin sinkretizmi (Əlif Şəfəq və İskəndər Palanın yaradıcılığı əsasında),// filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı / − Bakı, 2018. − 33 s.

[5] Bozkuş M.O. İskender Pala'nın Romanlarında Gerçek ve Kurmaca İlişkisi. Diss. Adnan Menderes Üniversitesi, 2013, s.37., Emine B. Y. İskender pala'nin roman ve öykülerinde yapi ve tema. Adıyaman Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Yüksek Lisans Tezi, Eylül 2014.

Türk romanının çağdaş problemlərinin öyrənilməsi yuxarıda adlarını qeyd etdiyimiz dissertasiyalarla və monoqrafik tədqiqatlarla məhdudlaşmır. Bunlardan başqa, xeyli sayda məqalə və məruzələrdə də çağdaş nəsrin problemləri öyrənilmiş, türk romanının tarixi keçmişi, mövzusu, müasir oxucular üçün aktuallığı və s. kimi problemlər araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiya işinin obyektini İ.Palanın müxtəlif illərdə qələmə aldığı bədii əsərləri, daha doğrusu "Babildə ölüm, İstanbulda eşq", "Qətreyi-matəm", "Şah və Sultan", "Od" (Bir Yunus romanı), "Əfsanə" (Bir Barbaros romanı"), "Mehmandar" (Bir Əyyub Sultan romanı), "Bülbülün qırx nəğməsi", "Etiraf", "Harun və Anarxist", "Axşam ulduzu"[6] adlı tarixi romanları təşkil edir.

Tədqiqatın predmeti isə İ.Palanın dissertasiyada təhlilə cəlb edilən tarixi romanlarında mövzu rəngarəngliyi, ideya-məzmun xüsusiyyətləri, tarix və müasirlik probleminin öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi çağdaş türk nəsri fonunda İ.Palanın tarixi roman yaradıcılığını araşdırmaqdır. Təbii ki, bu məqsədlə əlaqədar olaraq bir sıra vəzifələr də müəyyənləşir:

- Çağdaş nəsrdə roman janrının yerini və rolunu ortaya çıxarmaq;
- Roman janrının inkişaf yolunu izləmək;
- Türk ədəbiyyatında roman və tarixi roman janrının yaranmasını və inkişafını öyrənmək;
- İ.Palanın həyat və yaradıcılıq yolunu işıqlandırmaq;
- İ.Palanın romanlarının mövzu dairəsini müəyyənləşdirmək;
- İ.Palanın romanlarında tarix və müasirlik konseptini üzə

---

[6]Pala İ. Babilde Ölüm İstanbulda Aşk. İstanbul: LM Yn., 2003, 392 s., Pala İ. Katre-i Matem. İstanbul: Kapı Yayınları, 2008, 480 s., Pala İ. Şah ve Sultan. İstanbul: Kapı Yayınları, 2010, 390 s., Pala İ. Od (Bir Yunus romanı). İstanbul: Kapı Yayınları, 2011, 361 s., Pala İ. Efsane (Bir Barbaros Romanı). İstanbul:Kapı Yn.,2013, 392 s., Pala İ. Mihmandar (Bir Eyüp Sultan Romanı). İstanbul: Kapı Yayınları, 2014, 400 s., Pala İ. Bülbülün Kırk Şarkısı. İstanbul: Kapı Yayınları, 2015, 590 s., Pala İ. İtiraf, Kapı yayınları 2019, 248 s., Pala İ. Karun ve Anarşist. İstanbul: Kapı Yayınları, 2017, 320 s., Pala İskender. Akşam Yıldızı. İstanbul. Kapı Yayınları, 2019, 252 s.

çıxarmaq;

- İ.Palanın romanlarını tarixi gerçəklik və bədii həqiqət müstəvisində araşdırmaq;

**Tədqiqat metodları:** Dissertasiya işi yazılan zaman ədəbiyyatşünaslıq və tarixşünaslıq kontekstində müqayisəli təhlillər aparılmışdır. Tipoloji-müqayisəli təhlil metodu tədqiqat işi üçün aparıcı olmuşdur. Mətnlərarası əlaqə metodu vasitəsilə İ.Pala romanları bir bütün olaraq öyrənilməyə çalışılmış, sistemli şəkildə yazıçının əsərlərinin bədii keyfiyyətləri və təhkiyə xüsusiyyətləri haqqında bilgi verilmişdir.

Tədqiqat işinin nəzəri əsaslarını isə Azərbaycan və türk alimlərinin müxtəlif elmi tədqiqat əsərləri (monoqrafiyalar, dissertasiyalar, avtoreferatlar, elmi məqalələr, elmi konfrans və simpoziumların materialları və s.) təşkil etmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Dissertasiya işinin məqsədi məhsuldar roman yaradıcılığı ilə seçilən İ.Palanın əsərləri əsasında təhlillər apararaq tarix və müasirlik problemini araşdırmaqdır. Burada İ.Pala yaradıcılığı ilə yanaşı, türk tarixi romanının təşəkkülü, təkamülü və inkişaf mərhələləri də problemin tərkib hissəsi olaraq araşdırılmış, aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Türk romanının spesifik inkişaf yolu müəyyənləşdirilmişdir;
- İ.Palaya qədərki türk roman yaradıcılığının özünəməxsus inkişaf yolu araşdırılmışdır;
- İ.Palanın romanları tarix və müasirlik kontekstində tədqiq edilmişdir;
- İ.Palanın romanları mövzu baxımından təsnif edilmişdir;
- İ.Palanın Osmanlı, Azərbaycan, eləcə də dini mövzulu romanları təhlilə cəlb edilmişdir;
- İ.Pala nəsrinin fərdiliyi üzə çıxarılmışdır;
- Tarix və müasirlik kontekstində İ.Pala romanlarının çağdaş türk nəsrində yeri müəyyənləşdirilmişdir;
- İ.Palanın tarixi roman yaradıcılığının türk ədəbiyyatındakı önəmi vurğulanmışdır;
- Tarixi qəhrəman və müasir oxucu problemi baxımından İ.Pala romanları dəyərləndirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Yuxarıda qeyd etdiyimiz kimi

Azərbaycan türkologiyasında İ.Pala yaradıcılığı, həmçinin türk tarixi roman yaradıcılığı haqqında tədqiqat işlərinin sayı çox deyil. Dissertasiya işində İ.Pala yaradıcılığı türk romançılığı ilə vəhdətdə verilmişdir. Belə ki, dissertasiyada həm də türk romançılığının çağdaş təmsilçilərdən olan İ.Palaya qədərki mərhələlər təhlilə cəlb edilmişdir.

Dissertasiyada ilk dəfə olaraq Aərbaycan türkologiyasında İ.Palanın roman yaradıcılığı sistemli şəkildə öyrənilmiş, müxtəlif tarixi dövrləri əhatə edən romanları tarix və müasirlik kontekstində təhlil edilmişdir.

Tədqiqat işində İ.Pala yaradıcılığına ümumi və bütöv baxış sərgilənmiş, tarixi romanların fərqli cəhətləri, yazılma məqsədləri və stilistikası dərindən təhlil edilmişdir. Eləcə də Azərbaycanla, Azərbaycan tarixi ilə əlaqəsi olan görkəmli şəxsiyyətlərimizin qəhrəmanı olduğu əsərləri təhlilə cəlb edilmiş, faktoloji yanlışlıqlar və qüsurlu dəyərləndirmələr qeyd olunmuş və münasibətlər sərgilənmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işi türk romancılığına və İ.Pala yaradıcılığına həsr olunduğu üçün onun elmi müddəa və nəticələrindən türkologiyada, türk nəsrinin problemlərinin araşdırılmasında, xüsusilə roman janrı və formalarının təşəkkülü, təkamülü və inkişaf mərhələlərinin öyrənilməsində istifadə oluna bilər. Dissertasiya işi praktik baxımdan universitetlərin müvafiq fakültələrinin (Şərqşünaslıq və Filologiya) tələbələri üçün qaynaq ola bilər. Eyni zamanda bu istiqamətdə dərslik və dərs vəsaitlərinin yazılmasında, fənn proqramlarının tərtibində, seçmə kurs mühazirələrinin hazırlanması və tədrisində tədqiqat işi mühüm mənbələrdən biri ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mövzusu AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Şərqşünaslıq üzrə Problem Şurasının 26 aprel 2013-cü il tarixli 2 saylı iclas protokolu ilə təsdiqlənmişdir

Tədqiqat işinin əsas məzmunu, nəzəri müddəa və nəticələri doktorantın mövzusu ilə əlaqədar respublikamızda və xaricdə nəşr edilmiş elmi məqalələrində, beynəlxalq və yerli elmi konfranslardakı məruzə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya

işi AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türk filologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya işi giriş (10031 şərti işarə), üç fəsil (birinci fəsil üç paraqraf - 49631 şərti işarə, ikinci fəsil dörd paraqraf – 122100 şərti işarə, üçüncü fəsil üç paraqraf - 63550 şərti işarə), nəticə (4385 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 249.697 şərti işarədir.

**Tədqiqatın əsas məzmunu**

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, dissertasiyanın elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, strukturu AAK-ın tələblərinə uyğün şəkildə göstərilmişdir.

Tədqiqat işinin birinci fəsli **"Çağdaş Türkiyə ədəbiyyatında tarixi roman janrı"** adlanır və üç paraqrafdan ibarətdir. **"Türk ədəbiyyatında romanın təşəkkülü"** adlı birinci paraqrafda Türkiyə ədəbiyyatında roman janrının yaranma tarixi, təşəkkülü təhlil edilmişdir. Burada qeyd olunur ki, XIX əsr Osmanlı İmperiyasının tənəzzülü dövrüdür. İmperiyanın süqutundan sonra Türkiyə ədəbiyyatında yeniləşmə hərəkatı başlanmışdır ki, bu proses də Tənzimat dövründə baş vermişdir. Təbii ki, Türkiyədəki yeniləşmə hərəkatı burada roman janrının inkişafına da imkan yaratmışdır. *"Tənzimat ədəbiyyatının tələb və ölçüləri nəsrin janr imkanlarının genişlənməsində əhəmiyyətli rol oynayırdı. İlk baxımdan nəsrin xarakter yaratmaqda ənənəvi poeziya ilə müqayisədə üstünlükləri bu janrın ədəbiyyata gəlişinə həm ehtiyac yaratdı, həm də güclü təkan verdi"*[7].

Bu paraqrafda Türkiyə ədəbiyyatı ilə yanaşı Avropa ədəbiyyatında da romanın yaranması və inkişafı haqqında bəhs edilir.

Dünya ədəbiyyatında roman janrının inkişaf tarixindən danışılarkən görkəmli tənqidşünas Georg Lukaç qeyd edilən janrın müxtəlif dövrlərin ictimai-siyasi, ədəbi-fəlsəfi hadisələri ilə əlaqədə

---

[7] Quliyev Elman, Türk Halkları Edebiyatı, Malatya,2024. 826 s.

olduğunu vurğulayaraq tarixi romanın ilk nümunələrinin maarifləndirmə dövrünün tarixə qarşı heç bir reaksiyasının olmadığını, tarixi həssalığı fransız inqlabının düşmənləri olan Burke, De Maistre və digərlərinin üzə çıxardıqlarını irəli sürür və romantik yanaşmaları nəzərdən qaçırmamağı tövsiyə edir[8]. Bunu daha yaxşı anlamaq üçün Monteskye, Volter, Gibbon kimi yazıçıların möhtəşəm tarixi romanlarını dəyərləndirir.

Tədqiqatçı Murad Dəyər də XIX əsri roman yaradıcılığında xüsusi bir mərhələ hesab edir[9] və onun fikri ilə razılaşsaq, deyə bilərik ki, türk ədəbiyyatında roman janrı əslində Avropa ədəbiyyatı ilə sıx əlaqədə formalaşmışdır. Sadəcə Avropa ədəbiyyatından fərqli olaraq formalaşması XIX əsrə təsadüf etmişdir. Bu zamana qədər isə Avropada artıq yüzlərlə roman yazılmışdır və janr öz populyarlığını qazanmışdır.

Birinci fəslin ikinci paraqrafı **"Türk ədəbiyyatında tarixi romanın inkişaf dövrləri"** adanır.

Ədəbiyyatşünaslıqda müzakirə olunan mövzulardan biri də tarixi romanın səciyyələndirilməsi, digər roman çeşidlərindən ayrılması məsələsidir. Tarixi romanın tərifinin verilməsi ilə bağlı tədqiqatçılar arasında vahid bir fikir yoxdur. Bu romanları "tarixi şəxsiyyətləri və hadisələri ilham qaynağı olaraq əks etdirən romanlar" adlandırmaq mümkündür. Tarixi romanda yazılı tarixdən fərqli olaraq yazıçının tarixi həqiqətləri tam olaraq əks etdirmək kimi bir "qayğı və qorxusu" yoxdur. Buna görə də bir çox hallarda "tarixi" olduğu isbatlana bilinməyən element və detalları da ehtiva etməsi mümkündür[10]. Bütün tarixi roman tərifləri ilə bağlı ümumi cəhət budur: yaxşı təsvir edilmiş tarixi məkanlar və hadisələr, həqiqi və ya xəyali şəxsiyyətlər və romanın obyekti olan dövrü mümkün olduğu qədər eynilə əks etdirə bilmək baxımından yazıçının göstərdiyi cəhdlər.

Tarixi roman heç də tarixin əks etdirilməsi demək deyil, tarixin yazıçının təxəyyülündən keçərək yenidən şərh olunmasıdır. Tarix

---

[8] György L. Tarihsel Roman. Ankara: Epos Yayınları, 2018. 464s.

[9] Dəyər, M. Türkiyə və Azərbaycan ədəbiyyatında tarixi roman janrı (Samiha Ayverdi və Əzizə Cəfərzadənin yaradıcılığı əsasında) / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası / − Bakı: 2015. − 155 s.

[10] Turgut G. Tarihsel Roman Üzerine, Ankara: Akçağ, 2004,208 s.

sənədlərin və daha əvvəlki dövrlərdə yazılmış tarixi əsərlərin fonunda müasirliyin tələblərinin də nəzərə alınaraq şərh olunması nəticəsində tarixi romanlar ortaya çıxır. Roman isə tarixi həqiqətlərin yazıçının təxəyyülündə yenidən, hər hansı bir kitabla məhdudlaşmadan, tarixi əhəmiyyəti çox da nəzərə alınmadan süjet xəttinin yaradılması nəticəsində formalaşır və yaranır. Buna görə də tarixi əsərlərdə öyrətmək və ya bilgi vermək, məlumatlandırmaq, tarixi romanlarda isə keçmiş zamanda aid bir dünyanın əks olunmasından bəhs etmək mümkündür.

Tarixçi və tarixi roman yazarı arasında ən mühüm fərq birincinin obyektivliyi qorumaq üçün sənəd, fakt və materiallara sadiq qalması, ikincinin isə bütün bu materiallardan öz romanında məharətlə istifadə etməsi, lakin öz yaradıcılıq mövqeyini əks etdirməsidir. Məhz bu baxımdan tarixçinin araşdırmalarında subyektivlikdən qaçma, yazıçının romanında isə subyektivizmin güclü olması hiss olunur. Yazıçı üçün tarix sadəcə bir vasitədir, mühit və tarixi şəxsiyyətlər onun bədii təxəyyülündə yenidən canlanır və romanın məqsədinə xidmət edir. Əlbəttə, tarixə sadiqlik hər zaman mümkün olmur, tarixçi məlum olan faktlardan çıxış edərək tarixin qaranlıq yönlərini də bərpa etməyə çalışır. *"Tarixi romançı ilə tarixçi arasında hadisələrin şərhi və dəyərləndirilməsi baxımından müəyyən oxşarlıqların olduğunu və bu halın özünü süjet xəttinin qurulmasında göründüyünü"*[11] deyən tədqiqatçı Yakup Çelik keçmişdə baş verənlərlərlə və yaşananlar ilə yazılan tarixi roman arasında eyniyyətin olub-olmamasının həmişə müzakirə mövzusu olduğunu vurğulayır. Roman yazarı isə tarixçinin verdiyi materialdan öz əsərində eynilə istifadə edir. Tarixin maraq göstərmədiyi mövzuları isə öz təxəyyülünün yardımı ilə tamamlayır.

Tarixi əsərlə tarixi romanın fərqli cəhətlərindən biri də məhz bu cəhətdir. Qeyd olunduğu kimi, tarixi roman yazarı üçün fakt tarixdən daha çox, tarixçilərin araşdırmalarıdır və həmin araşdırmalar bədii mətnin təşəkkülündə mühüm vasitə olaraq yer alır. Daha doğrusu, tarixi roman yazarı tarixçilərin əsərlərinə əsasən öz mətnini qurur və tarixdə tapmadıqlarını öz bədii təxəyyülü vasitəsilə bərpa edir.

---

[11] Yakup Ç. Tarih ve Tarihî Roman Arasındaki İlişki Tarihî Romanda Kişiler. Bilig Dergisi, Yaz 2002, Sayı 22; s. 49-68

Tədqiqatlarda tarixi roman üçün üç aspektin əsas olduğu qeyd edilir: tarix, bədii əsər və didaktika.

T.Göyəbaxana görə, tarixi romanın ilk özəlliyi onun məhz tarixlə əlaqədar olmasıdır[12]. Lakin qeyd etmək yerinə düşər ki, bədii təxəyyül də burada əsas şərtlərdəndir. Tarixi roman yazarı tarixilik prinsipinin də, həmçinin bədii mətn qurduğunun də fərqindədir. Yəni yazar həm tarixi bir hadisədən şüurlu şəkildə istifadə edir, həm də qurduğu mətnin roman olduğunu da unutmur. Buna görə də tarixilik prinsipi tarixi romanın əsas şərtlərindəndir.

Ümumi olaraq romanın yaranması Qərb ədəbiyyatından başladığı kimi, tarixi romanın da yaranması Avropa ədəbiyyatı ilə bağlıdır. Bu baxımdan ilk olaraq Volter Skotun adını qeyd etmək mümkündür. Onun "Vaverley" romanı Qərbdə tarixi roman janrının ilk nümunəsi kimi qəbul edilir.

İlk türk romançılarının qərb ədəbiyyatının nümanyəndələrindən, xüsusilə, Aleksandr Düma və Viktor Hüqonun yaradıcılığının təsirindən əsər yazmaları türk ədəbiyyatında tarixi romanın məzmun və forma xüsusiyyətlərinin formalaşmasında böyük rol oynamışdır.

Bildiyimiz ki, Türkiyə ədəbiyyatında ilk tarixi romanın Əhməd Midhəd Əfəndinin "Yeniçərilər", yoxsa, Namiq Kamalın "Cəzmi" əsəri olması mübahisəli məsələlərdəndir. Namiq Kamalın adı çəkilən romanı XVI əsrin tarixi hadisələrinə həsr olunmuşdur ki, tənqidi fikirlərdə yazıçının tarixin verdiyi hazır əhvalatı əks etdirməkdən uzağa gedə bilmədiyinə baxmayaraq, milli şüur və bərabərlik duyğularını canlandıraraq süquta doğru gedən Osmanlını uca tutmuş, geridə qalmış toplumu maarifləndirmək məqsədi ilə yazılmış önəmli bir əsər olduğu qeyd olunur[13].

"Cəzmi" romanı nəşr olunduqdan sonra bir milli roman, ya da yerli roman meydana gətirə bilmək üçün tarixi romanlar ortaya çıxmağa başlayır və Ə. M.Əfəndinin daha öncə bəhs olunan romanı ilə yanaşı, Şəhbəndərzadə Filibəli Əhməd Hilminin "Öksüz Turqut"unu,

---

[12] Turgut G. Tarihsel ve Tarii Roman Üzerine, Ankara: Akçağ, 2004,2008, s.15.

[13] Sulaimanova A. Konusunu Türk Tarihinden Alan Tarihi Romanlar (1966-1970) T.C. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edeviyatı Anabilim Dalı, Yeni Türk Edebiyatı Bilim Dalı. Yayınlanmış Doktora Tezi, İstanbul, 2009, səh.383.

İbnüləmin Mahmud Kamalın "Sabih" adlı romanını qeyd etmək mümkündür.[14]

Deyə bilərik ki, ilk yaranan tarixi romanların roman texnikası baxımından zəif olmasına baxmayaraq bu əsərlər türk insanın özünü təqdim etməsinin ifadə vasitəsi olmuşdur[15].

Tənzimat dövründən sonra II Məşrutiyyət dövrü roman yaradıcılığı məhsuldarlığı ilə seçilir. 1909-1923-cü illər arasında yazılan tarixi romanlar tarixi romanın ikinci dövrü olaraq qəbul edilir. Hətta həmin dövrdə nəşr olunan tarixi romanların sayı Cümhuriyyət dövründə nəşr edilən romanlardan daha çox idi. Buna da səbəb milli mübarizə fəaliyyətinin güclü olması və tarixdə baş verən hadisələrin ədəbiyyata da öz təsirini göstərməsində idi.

1923-cü ildə Cümhuriyyət qurulduqdan sonra Türkiyə ədəbiyyatında da yeni bir mərhələ başlanır. Cümhuriyyətin başlanğıcı türk roman yaradıcılığının üçüncü dövrü olaraq qəbul olunur.

Cümhuriyyət dövründə də Türkiyə ədəbiyyatında tarixi roman yazmaq ənənəsi davam etdirilir və romanların mövzusunda Osmanlı tarixi və mədəniyyəti aparıcı yerdə dayanır.

Birinci fəslin üçüncü paraqrafı **"Çağdaş türk ədəbiyyatında tarixi roman yaradıcılığı"** adlanır.

1960-cı illərdən başlayaraq, türk romanının məzmunu genişlənir, siyasi və iqtisadi dəyişikliklər romanda da öz əksini tapır, eyni zamanda roman yazma texnikasında da yeniliklər nəzərə çarpır.

1970-1980-ci illərin roman yaradıcılığında əvvəlki illərdən bu yana davam edən kənd və kəndli mövzusu ilə yanaşı, 27 May və 12 Mart hadisələri də romanların mövzusuna çevrilir. Tarixi romanlara yeni bir mövzu da əlavə edilir: Almaniyaya köç etmiş insanların problemləri romanların mövzularını təşkil edir. Türkiyədən Almaniyaya gətirilən uşaqların dil problemləri, iş problemləri, Vətən

---

[14] Nermin Ö. "Tarihî Romanlar ve XIX. Yüzyılda Yazılmış Üç Tarihî Romanın Değerlendi-rilmesi", Yayınlanmamış Yüksek Lisans tezi, Gazi Üniversitesi, 1992, s.168.

[15] Əliyeva S.Ə. Cümhuriyyət dönəmində tarixi roman janrı /Ə. Məmmədovun anandan olmasının 100 illiyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfrans, Bakı, 2019)s.157-159.

həsrəti, alman cəmiyyətinə uyğunlaşmağın çətinliyi kimi müxtəlif məsələlər həmin romanların əsas mövzularına çevrilir[16].

1980-ci illərdən sonra roman yaradıcılığında yeni texnikanın tətbiqi diqqəti cəlb edir. Romanlarda fərdin önə çəkilməsi və romanın onun ətrafında qurulması nəzərə çarpır, roman klassik texnikasından uzaqlaşır və yeni bir texnika və süjet özəlliyi qazanır. Roman yazarları daha çox fərddən cəmiyyətə doğru gedir və cəmiyyətin problemlərini əks etdirməyə çalışırlar. Eyni zamanda romanda birinci şəxs üslubu daha çox diqqəti cəlb edir. Romanların dili də məhz bu dövrdə daha çox simvolikləşir.

1990-cı illərin romanlarında da Osmanlı sarayının təsviri əsas yer alır. Həmin dövrün məşhur yazarları olan Nədim Gürsel, Zülfü Livanəli, Hıfzı Topuz kimi nasirlər müxtəlif romanlarını oxucuların ixtiyarına verirlər. Onlar tarixə müraciət edən əsərlər qələmə alırlar. Nədim Gürsel "Boğazkəsən" romanında tarixi və müasir dövrü bir arada verir. Belə ki, həm öz dövrünü əks etdirir, həm də Sultan Fatehin 1453-cü ildə İstanbulu fəth etməsini təsvir edir. Zülfü Livanəli də tarixi romanında saray intriqalarından, validə sultanların "əməllərindən" bəhs edir. Hıfzı Topuz isə Pertevniyal Validə Sultanın xatirələri əsasında Əbdüləziz və Əbdülməcid dövründən bəhs edir[17].

Yaranma tarixindən günümüzə qədər Osmanlı sarayı mövzusu türk roman yaradıcılığında öz aktuallığını qoruyur. Təbii ki, bunun da əsas səbəbi müəyyən dövrlərdə yazarların azad düşüncə baxımından sıxışdırılması, siyasi senzura zəminində daha çox tarixə baş vurmalarıdır.

Qeyd edə bilərik ki, yazarların məhz bu dövrləri seçməsinin səbəbi müasir oxucunu həmin dövr haqqında məlumatlandırmaq və daha çox Osmanlının yüksəliş dövrünə müraciət etmələri tarix və müasirlik kontekstində cəsarət hissinin aşılanması fikrini təsdiqləyir.

Dissertasiyanın I fəslində əldə edilən əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[18]

---

[16] Önertoy O. Cumhuriyet Döneminde Roman, UNIT 8, s.135.

[17] Önertoy O. Cumhuriyet Döneminde Roman, UNIT 8,s. 135.

[18] Əliyeva S.Ə. Cümhuriyyət dönəmində tarixi roman janrı / Ə. Məmmədovun anandan olmasının 100 illiyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfrans, Bakı, 2019, s.157-159.

İkinci fəsil **"İsgəndər Palanın romanlarında tarixiliklə müasirliyin vəhdəti"** adı adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. **"İsgəndər Palanın həyatı və yaradıcılıq yolu"** adlanan birinci paraqrafda yazıçının həyatı və bədii yaradıcılıq yolundan bəhs olunur.

8 iyun 1958-ci ildə Türkiyənin Uşaq əyalətində dünyaya göz açan İ.Palanın ibtidai təhsilindən indiyə kimi fəaliyyəti haqqında məlumat verillir. Tələbəlik illərində və daha sonra mütaliəyə böyük maraq duyan, dünya və Türkiyə ədəbiyyatı ilə yaxından tanış olan yazıçının həyatında klassik ədəbiyyat, divanlar əsas yer tutur. Divan şeirini anlamağın bəsit bir iş olmadığını dərk edən İ.Pala eyni zamanda klassik şeiri tədqiq etmək üçün müxtəlif qaynaq və məxəzləri araşdırmağın lazım olduğunu, tarix, mədəniyyət tarixi, fəlsəfə, sosiologiya, sənət tarixi və s. elmlərdən xəbərdar olmağın vacibliyini vurğulayır. Hərbi həyatdan ayrıldıqdan sonra yenə də elmi və bədii həyata dönən İ.Pala özünü tamamilə ədəbiyyata və ədəbiyyatşünaslığa həsr edir.

Zəngin yaradıcılığa sahib olan yazıçının "Ensiklopedik divan şeiri sözlüyü", "Akademik divan şeiri araşdırmaları", "Divan ədəbiyyatı", "Müstəsna gözəllər", "Şairlərin dilindən", "Əfsanə gözəllər", "Şeirlər, şairlər, məclislər", "Şeiri-qədim", "Və qəzəl yenidən", "İki dirhəm, bir çəkirdək", "Tavan arası", "Gül şeirləri", "Xeyriyyə", "Hilyeyi-səadət", "Babildə ölüm, İstanbulda eşq" (2004), "Qazılar kitabı", "Qırx gözəllər çeşməsi", "Kitabi-eşq", "Qırx anbar", "Mirat", "Leyla ilə Məcnun", "Şah və Sultan", "Qurdların əfəndisi", "Od" (Bir Yunus romanı), "Əfsanə" (Bir Barbaros romanı), "Mehmandar" (Bir Əyyub Sultan romanı), "Qətreyi-matəm","İstanbulçunun sandığı, "Abum-Rabum, "Etiraf" və s. kimi həm elmi, həm də bədii əsərləri var.

İkinci fəslin ikinci paraqraf **"İsgəndər Palanın romanlarında tarixiliyin təzahürü"** adlanır. İ.Pala yaradıcılığı həm araşdırmalarla, həm də tarixi romanlarla zəngindir. Tarixi romana olan sevgisini və həvəsinin klassik əsərlərdən qaynaqlandığını görürük. İ.Palanın tarixi romanlarına nümunə kimi aşağıdakı əsərləri göstərmək olar: "Babildə ölüm, İstanbulda eşq", "Şah və Sultan", "Od ( Bir Yunus romanı)", "Əfsanə Bir Barbaros romanı", "Mehmandar Bir Əyyub Sultan romanı", "Bülbülün qırx nəğməsi", "Boğaziçindəki mücəvhər"

“Qətreyi-matəm”, “Abum Rabum”, “Harun və anarxist”, “Axşam ulduzu”, “Etiraf” və s. Bu romanlar müxtəlif tarixi dövrləri, tarixi şəxsiyyətləri yenidən, müasir tələblərə uyğun olaraq işləyən, oxucuların nəzərinə çatdıran əsərlərdir. Adətən, bu əsərlərdə tarixiliklə müasirliyin çulğalaşmasının şahidi oluruq.

İ.Pala tarixiliyi təbliğ etdikdə maraqlı təhkiyə tərzlərinə də müraciət edir. Bunlardan biri də detektiv üslubdur. Bəzi romanları müəyyən cinayət hadisələri ilə bağlıdır və bu əsərlərdə detektiv üsulla cinayətkarlar axtarılır, romanın süjet xətti məhz bunun üzərində qurulur. Bu tərzdə qurulan tarixi romanlarından biri də “Babildə ölüm, İstanbulda eşq” adlı əsəridir. Roman Məhəmməd Füzulinin “Leyli və Məcnun” məsnəvisinin təsiri ilə qələmə alınmışdır və əsərin qəhrəmanları sırasında bu iki aşiqin də özünəməxsus rolu var. Qanuni Sultan Süleymanın Bağdadı fəth etməsindən başlayaraq XIX əsrin qərbləşmə hərəkatına kimi Osmanlı tarixini roman sətirləri arasına yerləşdirən İ.Palanın bu romanı əslində ona ən çox şöhrət gətirən əsəri olmuşdur. Romanın başlanğıcında Füzulini təsvir edən və Babil mədəniyyətinin kosmosla bağlı sirlərini “Leyli və Məcnun” əsərinin sətirlərində kodlaşdıran Pala əsərə bir detektiv ruh əlavə edir. Məsnəvi əldən-ələ gəzir və həmin sirri öyrənməyə çalışanlar da dörd əsrlik Osmanlı tarixi və mədəniyyəti ilə oxucunu tanış edərək əsərdə Osmanlı şairlərindən bəhs edilir və onların həyatlarından, əsərlərindən parçalar verilir. Romanın əsas qəhrəmanı əslində kitabdır - “Leyli və Məcnun” əsəridir. O, 450 il boyunca əldən-ələ, ölkədən-ölkəyə keçir və başına gələnləri təsvir edir.

Bu roman İ.Palanın tarixi konteksti ən zəngin olan əsərlərindəndir. Əsər qəhrəmanlarının, demək olar ki, əksəriyyəti tarixi şəxsiyyətlər - sultanlar, paşalar, şairlər və digərləridir: Hilləli Mehmet Əfəndi, Baki, Nəfi, Nabi, Şeyx Qalib, Nədim, Xaqani Mehmet bəy, Nevizadə Atayi, Namiq Kamal kimi türk ədəbiyyatının məşhur ədəbi şəxsiyyətlərinin roman səhifələrində obrazları yaradılır. Romanda Qanuni Sultan Süleyman və Sultan Muradın Osmanlı padşahları kimi obrazları yaradılmışdır. Qanuni Sultan Süleyman “Qanun qoyucu” təxəllüsü ilə verilmişdir.

İ. Palanın Osmanlı tarixi ilə bağlı məşhur əsərlərindən biri də “Qətreyi-matəm” romanıdır. Roman Lalə dövrünün tarixi hadisələrini

əks etdirir və detektiv janrında qələmə alınmışdır. “66 sualda cinayət” şifrəsi altında yazılmış əsər XVIII əsrdə Osmanlı tarixindəki hadisələrdən bəhs edir. Roman kitab içində kitab texnikası ilə qurulmuşdur. Belə ki, evə gedərkən bir kitaba rast gələn yazar əslində romanda həmin kitabdakı olayları dilə gətirir və kitabın da ən uzun və ən son bölümündə oxuculara söyləyəcəyi bu əhvalatın yer aldığını qeyd edir ki, həmin əhvalatın başlığı qırmızı mürəkkəb ilə və mihraiyə naxışlar içində yazılmışdı.

Romanda təsvir olunan əsas tarixi hadisə Partona Xəlil üsyanıdır. Romanın əsas qəhrəmanı Şahin adlı şəxsdir.

Osmanlı tarixində 1718-1730-cu illəri əhatə edən Lalə dövrü mühüm mərhələlərdəndir. Qərbləşmə meylinin başlanğıcı kimi qəbul edilən bu on iki illik müddət “zövq və səfa dövrü” olaraq da bilinməkdədir. Sultan III Əhmədin hakimiyyət dövrünə təsadüf edən həmin dövrdə Osmanlı İmperiyasında bir çox yeniliklər baş verir. İstanbulda mətbəə açılır, çini məhsullar hazırlayan müəssisələr yaradılır və s. Eyni zamanda ədəbiyyat, şeir və sənət aləmində də bir canlanma başlanır. Nevşehirli İbrahim Paşanın himayəsində ədəbiyyat yeni bir tərzdə inkişaf edir.

İ.Palanın “Qətreyi-matəm” romanında məhz həmin dövrün tarixi səciyyəsini verir, yazıçı tarixi faktları təxəyyülündən keçirərək oxucuya təqdim edir. Detektiv roman tərzində yazılmış bu əsərində yazıçı o dövrün İstanbulunu oxucunun gözü önündə canlandırır, Patron Xəlil üsyanının təfərrüatları ilə tanış edir. Roman “kitab içində kitab” təhkiyə modeli əsasında qurulmuşdur. Baş verən cinayətin araşdırılmasını geniş şəkildə təsvir edən İ.Pala əsəri üç fəsildə xülasə edir.

İ.Palanın “Əfsanə” romanı tarixi səciyyədədir və öncə yazdığı əsərləri kimi tarixi hadisələr və şəxsiyyətlər fonunda qələmə alınmışdır.

Roman Osmanlı İmperiyasının dəniz fatehlərindən olan Xızır Rəis Paşaya həsr olunmuşdur və əsər boyu türklərin Ağdənizdə apardıqları müharibələr təsvir edilmişdir. Romanda əsasən XV-XVI əsrlərdə yaşamış tarixi şəxsiyyətlərdən bəhs olunur. Osmanlı donanmasının əfsanəvi sərkərdələrindən olan Xızır Rəis bunların başında gəlir.

Əsərin baş qəhrəmanı Xızır Rəis və ya Xeyrəddin Paşadır, yaxud da avropalıların təbirincə, Barbarossadır. Əsl adı Xızır Rəis olan

Xeyrəddin Paşa Osmanlı İmperiyasının hərbi dəniz yürüşlərində xüsusi rolu olan bir admiraldır. Barbarossa adı ona avropalılar tərəfindən verilmişdir. Həyatı dənizlə, hərbi yürüşlərlə bağlı olan bu şəxsiyyət haqqında romanda da dənizçilik terminləri ilə tez-tez qarşılaşırıq. Bu istilah və terminlər bəzən əsərin oxunaqlılığına mane olsa da, tarixi ab-hava yaratmaq baxımından əhəmiyyətlidir.

İkinci fəslin üçüncü paraqrafı **"İsgəndər Palanın Osmanlı tarixi və ədəbiyyatı ilə bağlı romanları"** adlanır.

İ.Palanın romanlarında qeyd etdiyimiz kimi, müxtəlif tarixi şəxsiyyətlərin obrazları yaradılır. Həmin tarixi şəxsiyyətlər içərisində Sezardan tutmuş günümüzə qədər müxtəlif məşhur insanların adlarını çəkmək mümkündür. Lakin İ.Pala romanlarında, təbii ki, ilk yerdə Osmanlı dövründə yaşamış insanlar, tarixi şəxsiyyətlər əsas obrazlar kimi çıxış edirlər.

Osmanlı tarixi ilə əlaqəsi olan romanlar aşağıdakılardır: "Babildə ölüm, İstanbulda eşq", "Qətreyi-matəm", "Əfsanə", "Od" və s.

"Babildə ölüm, İstanbulda eşq" romanı tarixi mövzuda olsa da, süjet xəttində Füzulinin də yer alması başqa bir mövzudan da xəbər verir. Romanda nakam eşqdən də bəhs edilir və ümumiyyətlə, əsər "Leyli və Məcnun" üslubunda yazılmışdır. Tarixi xarakter daşısa da, eşqin tərənnümü məsələsi də birinci planda yer alır. "Leyli və Məcnun" məsnəvisi romanın mərkəzində duran əşya surəti olduğu kimi, Osmanlı-Səfəvi münasibətlərinə də şahidlik edən bir obrazdır.

Romanda yazıçı maraqlı bir süjet xətti qurmuşdur. Roman boyu orta əsrlər Osmanlı dövlətçiliyi və mədəniyyəti haqqında məlumat verildiyi kimi, Babil Cəmiyyəti və Babil Kosmik Araşdırmalar Mərkəzi haqqında da xarakterik təsvirlər yaradılır. Əsərin süjet xətti də bu cəmiyyətin üzvlərinin Babil Məbədinin şifrəsini bilmək üçün "Leyli və Məcnun" əsərinin ardınca xəfiyyələr göndərmələri və onlarla insanın bu yolda öldürülməsi, əsərin əldən-ələ keçməsi, dəfələrlə üzərində araşdırmalar aparılması, bütün Osmanlı şairlərinin evlərində saxlanılması və ən sonda XIX əsrdə avropalı bir arxeoloq tərəfindən şifrəsi çözülərək, Məbədin qapılarının açılması ilə bitir.

İ.Palanın "Etiraf" romanında da Osmanlı mühitinin təsviri verilmişdir. Bu roman da tarixi mövzudadır və yenə də Osmanlı tarixinin ən möhtəşəm sərkərdələrindən biri - Sultan Fatehin

Konstantinopolu ələ keçirməsindən, bununla bağlı aparılan döyüşlərdən bəhs edir. Romanda XV əsrin təbəddülatları, intiqam duyğuları, Qərb və Şərq dünyası arasında qarşıdurma aparıcı yerdə durur. Sultan Fatehlə yanaşı, romanda Molla Lütfi, Əli Quşçu, Sinan Paşa, Bellini kimi yaddaqalan obrazlar var. Roman Palanın ənənəvi roman üslubunda qələmə alınmışdır. Əsər ənənəvi olaraq "Təşəkkür", "Müqəddimə", "Xatimə" və "Qaynaqlar" hissələrindən ibarətdir. Təbii ki, roman mətni müqəddimə hissəsindən sonra gəlir. İ.Palanın romanlarının sonunda istifadə edilmiş ədəbiyyat siyahısının verilməsi hər halda yazıçının tarixə sadiq bir yazar kimi özünü təsdiq etmə və sığortalama istəyindən irəli gəlir.

Roman XV əsr Osmanlı mühitinin görkəmli elm adamlarından olan Molla Lütfiyə həsr olunmuşdur. "Etiraf" romanı yuxarıda qeyd etdiyimiz tarixi fakt və hadisələrə əsaslanaraq yazılmış, Molla Lütfinin İstanbul həyatından başlayaraq edamının təsviri verilmişdir. İ.Pala bu tarixi romanının süjetini qurarkən maraqlı bir kompozisiya yaratmışdır. Osmanlı İmperiyasının Fateh Sultan Məhməd dövründə Konstantinopolu fəth etməsi və bundan sonra Osmanlı adının Avropada kabusa çevrilməsi romanın giriş hissəsində təsvir edilən tarixi faktlar arasında yer alan elementlərdir. İ.Pala bu tarixi romanının demək olar ki, hər bir detalını işləyən zaman qaynaq və məxəzlərdən faydalanmış, ciddi şəkildə Molla Lütfinin həyatını, dövrünü və mühitini öyrənmişdir. Buna görə də tarixi gerçəklik və bədii həqiqət baxımından bu əsəri İ.Palanın uğurlu romanlarından hesab edə bilərik. Romanda hadisələr Osmanlı dövləti ilə yanaşı, Avropada da baş verir.

İ.Pala Osmanlı tarixi qədər Osmanlı ədəbiyyatının, türk ədəbiyyatının klassik mərhələsinin də bilicisi və heyranıdır. Bu heyranlıq onu məhz bu mövzuda tarixi romanlar yazmağa da sövq etmişdir.

İ.Pala "Od" roman vasitəsilə ümumtürk ədəbiyyatının görkəmli nümayəndəsi olan Yunis Əmrənin həyatına işıq salmış, müasir oxucuların onun həyat və yaradıcılığı haqqında məlumat əldə edə biləcəkləri bir roman yazmışdır. Romanının baş qəhrəmanı Yunus Əmrə olsa da, burada Molla Qasımın da obrazı yaradılıb. Ədəbiyyat tarixindən məlumdur ki, Yunus Əmrə ilə bağlı çoxlu rəvayətlər və əfsanələr yaranmışdır. Bu rəvayətlərdən biri də Molla Qasımın adı ilə

bağlıdır.

İ.Pala bu romanında Yunus Əmrənin dil xüsusiyyətlərini sanki qorumağa çalışmış, nümunə olaraq seçdiyi şeirlərlə öz mətni arasında üslub baxımından bənzərlik yaratmışdır. Əvvəlcə rəncbər işləyən və çətin günlərdə dərgaha buğda almaq üçün üz tutan Yunus Əmrə böyük bir məktəb keçir. İlk başda təbii ki, o, dərvişlərin yaşam tərzini, onların mühitini qəbul edə bilmir. Onların söhbətlərdən başqa burdakı həyatlarının cansıxıcı olması, demək olar ki, bütün həyatlarının əsa, dəstar, kəmər, xirqə, təsbeh ibarət olması ona çox cansıxıcı gəlir.

İ.Pala bu tarixi romanında da gənclər üçün örnək davranışlara yer vermiş, dünyanın faniliyi, müvəqqəti olması ilə bağlı fikirlər səsləndirmişdir. Sonda övliyaların belə öləcəyini vurğulayan İ.Pala bu dünyaya aldanmamağı, axirət üçün çalışmağı istəmişdir.

**"İsgəndər Palanın romanlarında dini mövzulara müasir baxış"** adlanan dördüncü paraqrafda yazıçı tərəfindən islam tarixinin bədii əksi verilmiş romanları haqqında bəhs edilir. Yazarın iki romanı islamın iki böyük şəxsiyyətinə həsr olunmuşdur. Həmin şəxsiyyətlərdən biri Məhəmməd peyğəmbər, digəri isə onun səhabəsi Əyyub Sultandır. Hər iki romanda hadisələr VII əsrdə islamın yayıldığı dövrdə baş verir.

Tədqiqatçı alimərin[19] əsərlərindən oxuyuruq ki, ümumtürk ədəbiyyatına dərin iz salmış Süleyman Çələbinin "Vəsilətün-nicat" adlı əsərindən sonra islam peyğəmbəri Həzrət Məhəmməd haqqında yazılan əsərlərin sayı xeyli dərəcədə artmışdır. Bunlardan Kərimi, Əhmədi, Ağşəmsəddinoğlu Həmdullah Həmdinin, Həvayinin və başqalarının adlarını qeyd etmək olar.

Azərbaycan ədəbiyyatında da bir çox ədiblər Məhəmməd peyğəmbər haqqında fikir və mülahizələrini öz əsərlərində qeyd etmişdilər ki, bunlardan biri də Nizami Gəncəvidir. "*Nizami üçün Məhəmməd peyğəmbər bütün müsəlmanların xilaskarıdır"*[20] deyən akademik T.Kərimli N.Gəncəvinin "Xəmsə"sində Məhəmməd peyğəmbərlə bağlı yer alan süjetlər içərisində meracnamələrin xüsusi

---

[19] Rəhimova L., "Mövlüdnamə və Meracnamələr". Bakı, Elm və təhsil", 2018, s.492.

[20] Kərimli T., Nizami və tarix. Bakı, Elm, 2002, s.244

mövqeye malik olduğunu vurğulayır. N.Gəncəvi islam peyğəmbərinin həyat və fəaliyətini bir örnək sayaraq poemalarının giriş hissəsində nətlərlə yanaşı meracnamələr də xüsusi yer tutur.

İ.Palanın da islam peyğəmbərinin həyatını əks etdirdiyi “Bülbülün qırx nəğməsi” romanında Həzrəti Məhəmmədin uca əxlaqı, bəşər övladı üçün nümunəvi varlıq olması yazıçı qələmində vurğulanır. 99999 sözdən ibarət romanda islam tarixinin başlanğıc mərhələsi, peyğəmbər şəxsiyyətinin kamilliyi təsvir edilir. Bu romanda müəllif Məhəmməd peyğəmbərin həyatını çox gözəl qələmə almışdır, peyğəmbərimiz haqqında məlumatı olmayanlar, onu yeterincə tanıya bilməyənlər bu əsəri oxumaqla xeyli məlumat əldə edə bilərlər. Bülbül əsərdə bədiiliyi şərtləndirən bir simvolik obrazdır. Bildiyimiz kimi, klassik poeziyada Məhəmməd peyğəmbər isə qızılgül metonomiyası ilə anılır və yazıçı da bu məcazdan istifadə edərək, bülbülün gülə olan sevgi və həsrətini islam peyğəmbəri ilə əlaqədar verir. Roman boyu bülbülün nalə və nəğmələri tarixi hadisələr fonunda və yazıçı təxəyyülü zəminində duyulur.

Məhəmməd peyğəmbərlə əlaqədar olduğu üçün roman bəzən siyər olaraq da dəyərləndirilir. Əsər islam tarixi haqqında zəngin və əhatəli məlumatları əks etdirməklə yanaşı, tez-tez Qurana, hədislərə də müraciət edilir. Hətta əsərin sonunda roman janrının strukturuna xas olmayan bir cəhəti də görürük. Romanda bədiiliyi təmin edən poetizm və obrazlılıq da diqqəti cəlb edir.

İ.Palanın dini mövzuda yazdığı əsərlərindən biri də “Mehmandar” romanıdır. Bu romanla “Bülbülün qırx nəğməsi” əsəri arasında mövzu, ideya baxımından yaxınlıq var. Hər iki əsərdə islam peyğəmbərinin obrazı yaradılmışdır. Əbu Əyyub Ənsari Məhəmməd peyğəmbərin əshabələrindən olmuşdur. Peyğəmbər Mədinəyə hicrət edəndə Əyyub Sultan onu evində qonaq etdiyi üçün “mehmandarı-nəbi” adlandırılmışdır. Bu romanın da yazılma məqsədi islami şəxsiyyətlərlə müasir oxucuları daha yaxından tanış etmək, onları maarifləndirməkdir.

Romanı yazmaqda məqsədinin Əyyub Sultanı tanıtmaq olduğunu deyən yazıçı əslində bununla yanaşı, həm də Məhəmməd peyğəmbərə olan sevgisini də roman boyu əks etdirir. Bu roman yuxarıda qeyd etdiyimiz kimi, sanki “Bülbülün qırx nəğməsi” romanını tamamlayır.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[21]

Dissertasiya işinin üçüncü fəsli **"İsgəndər Palanın romanlarında tarixilik və müasirliyin ziddiyyətləri"** adlanır.

Üçüncü fəslin birinci paraqrafı **"İsgəndər Pala yaradıcılığında ibtidai mədəniyyətin təsvirinə müasir baxış"** adlanır. Burada yazıçının "Axşam ulduzu" romanın geniş təhlili verilib. Nadir arxeoloji abidə kompleksi olan Göbəklitəpə haqqında qələmə aldığı rıman İ.Palanın ənənəvi romanlarının quruluşundadır. Roman İ.Palanın digər əsərlərində olduğu kimi müxtəlif zamanlı tarixləri əhatə edən bir mətn kimi qurulmuşdur.

Yazıçı tarixliklə müasirliyin vəhdətində ibtidai insanı, onun dünyagörüşünü, inanc sistemini nə qədər dəqiqlik və həssaslıqla təsvir etməyə çalışsa da, çağdaş bir yazar kimi özünün subyektiv hiss, düşüncə və görüşlərini də əks etdirir. Qədim insanın inancından bəhs edərkən islamla bağlı təhtəlşüurundakı elementləri də təsvirə daxil edən

---

[21] İ.Pala yaradıcılığında Yunus Əmrə obrazı / Filologiya məsələləri, Bakı,2013, №10, s.347-352, İ.Palanın "Babildə ölüm, İstanbulda eşq" romanında Osmanlı-Səfəvi münasibətləri / Filologiya məsələləri, Bakı,2015, №5, s. 411-415, İ.Palanın "Əfsanə" romanlnda tarixi şəxsiyyətlər /Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, Bakı, 2016, №1, s. 194-197, İ. Palanın "Mehmandar" romanında Əyyub Sultanın obrazı / Azərbaycan Respublikası Təhsil Nazirliyi, Dokrorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materalları, Bakı, 2016, s.185-186, İskəndər Palanın bədii yaradıcılığında islam tarixinin əksi /Z.Bünyadovun xatirəsinə hərs olunmuş "Müasir şərqşünaslıq aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans, Bakı, 2017, s. 110-111, Художественное отображенное «Эпохи Тюльпанов» в романе Искандера Пала «Катрейи-Матем» / Киевский национальный университет имени Тараса Шевченко, Язык и культура, 2018, Выпуск 21, Том I (190), стр.138-144, Əliyeva S. İsgəndər Palanın "Babildə ölüm, İstanbulda eşq" romanının dil və üslub xüsusiyyətləri / "Elmlərarası inteqrasıya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər" mövzusunda beynəlxalq konfrans, Sumqayıt,2019, s.437-439, Aliyeva S.Iskender Pala as a propagandist of the Ottomon history / Ужгородський Національний Університет Закарпатські філологічні студії, Ужгород, 2020,№14, Aliyeva S.İnroduction of classical literature in the works of Iskender Pala / USBIK 2020 online International social sciences congress, Kayseri,2020, s.244-254, Əliyeva S. İsgəndər Palanın yaradıcılığında Məhəmməd peyğəmbərin obrazı / Ə.Haqverdiyevin anadan olmasının 150 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans XXI əsrdə elm və təhsil:nəzəriyyə və təcrübə Türkiyə, Kars, 2020, s. 83-86.

yazar tam şəkildə tarixilik prinsipinə əməl edə bilmir.

İ.Pala bu roman vasitəsilə müasir oxucuları qədim insanlar, onların yaşamları, həyat tərzləri, ayinləri, ovçuluq mədəniyyətləri, bərəkət və yağış diləməklə bağlı icra etdikləri mərasimlər və s. haqqında məlumatlandırır. Romanda çağdaş insanlara ibtidai insanların həyat və ölüm haqqında düşüncələri, mifləri, mədəniyyətləri, günümüzə qədər gəlib çatan maddi mirasları haqqında xəbər verilir. İ.Pala həm türk mifologiyası və mədəniyyəti, həm də islami bilikləri sintez edərək maraqlı bir roman qələmə ala bilmişdir.

Üçüncü fəslin ikinci paraqrafı **"Harun və anarxist" romanında keçmiş və müasir tarixin dialoqu" adlanır.** B.e.ə. VI əsrə və 1970-1990-cı illərə aid hadisələrin, tarixi əhvalatların təsvirinə həsr olunmuş romanda Lidiya krallığı ilə çağdaş Türkiyə tarixi sintezdə verilmişdir. Roman "Altın", "Ayna" və "Eşq" adlı üç böyük bölümdən və iyirmi dörd yarımbölümdən ibarətdir. İki fəsil keçmişlə müasir hadisələrin vəhdətində təkrarlanan tarixi proseslərin əksi kimi səslənir. Romanda perslərlə lidiyalıların savaşından bəhs edilir.

Romanda İ.Pala nəsillərarası mədəniyyət, tarix və kültür probleminə də toxunur. Xüsusilə də dindar adamların sənət anlayışları, müsəlman cəmiyyətində toplumun onlara münasibətləri yazıçını narahat edən məsələlərdir. Yazıçıya görə müasirlik və dindarlıq əsla ziddiyyət təşkil etməməlidir.

İ.Pala məhz bu romanında tarixi və müasirliyi çulğalaşmış şəkildə təqdim edərkən Anadolu mədəniyyətinin ən qədim dövrlərindən günümüzə qədər olan hadisələri riyazi bir poetika ilə qələmə almağa çalışır. Üçlük üzərində qurulan sistem birinin üzərində qələbə qazanmaq ümidi ilə mübarizə aparır və bunun naminə biri qatilə, digəri məhbusa çevrilir. Bununla da İ.Pala insanların Harun xislətlərinin minilliklər boyu dəyişmədiyini, əksinə tarixdən günümüzə müasirləşdiyini nəzərə çatdırır və bildirir ki, bundan dərs çıxararaq ictimaiyyətin tarixi şüurunu artırmaq və bununla bağlı mütəmadi işlər aparmaq lazımdır. Yazıçının, demək olar ki, hər il bir yeni tarixi roman yazmasının səbəbini də bu missiyada axtarmaq lazımdır.

**"İsgəndər Palanın romanlarında Azərbaycan mövzusu"** adlı üçüncü paraqrafda adından da məlum olduğu kimi Azərbaycan mövzusunda yazılmış romanlarına toxunulmuşdur. Romanlar arasında

xüsusilə "Babildə ölüm, İstanbulda eşq" romanı həm mövzu dairəsi, əhatəliliyi, həm də məşhur klassik şairimiz Məhəmməd Füzuli obrazını canlandırdığı, eləcə də, romanın baş qəhramanının Füzulinin əsəri olduğu üçün mühüm əhəmiyyət kəsb edir.

Roman tarixi mövzuda yazılmışdır, bəşər tarixinin ilk sivilizasiya dövrünü, orta əsrlər Şərq və Qərb mədəniyyətini oxucuya tanıtdırmaq istəyən yazıçı Məhəmməd Füzuli və onun "Leyli və Məcnun" poemasını əsərinə əsas qəhrəmanlar kimi seçmiş və roman boyu yad edir. Roman həcm etibarilə böyükdür və bu da yazıçının bu qədər geniş tarixi və ədəbi-mədəni prosesi bir əsər daxilində təsvir etmək istəyindən irəli gəlir.

Romanın mövzusunun eşqə həsr olunduğunu və Füzulinin "Leyli və Məcnun" əsərinin fonunda qələmə alındığını nəzərə alsaq, yazıçı fəsillərin başlıqlarında da Füzulinin təsiri altında qalır və klassik üslubda, sanki məsnəvi tərzində başlıqlardan istifadə edir.

Əsərdə Füzulinin təsiri həm roman müəllifinin cümlələrində, həm mövzusunda, həm də üslubunda özünü göstərir.

Yazarın Azərbaycan mövzusunda olan növbəti tarixi romanlarından biri də "Şah və Sultan" əsəridir. Roman Osmanlı və Səfəvi münasibətlərindən bəhs edir. Romanın yazılma məqsədi tarixi şəxsiyyətlər haqqında müasir insanlara bilgi verməkdir.

Bir dönəmə damğasını vurmuş Şah İsmayıl və Yavuz Sultan Səlimin həyatından bəhs edən və bu ikisi arasındakı mübarizəni mövzu olaraq seçən yazıçı, bu romanı yazaraq Osmanlı tarixi haqqında oxuculara bilgi verməklə kifayətlənmir, ələvilik və sünnülük məsələsi, fərq və qarşıdurmaları haqqında da təfərruatlı məlumat ötürür.

Bu roman tarix haqqında olsa da, Palanın ən çox mübahisə və müzakirə yaradan əsərlərindəndir.

Şah İsmayıl və Sultan Səlim haqqında tarixi təhriflərə yol verilməsi romanın oxucular və tədqiqatçılar tərəfindən birmənalı şəkildə qarşılanmamasına səbəb olmuşdur. Azərbaycan və Osmanlı tarixinin ən məşhur hökmdarları haqqında olan roman həm Türkiyədə, həm də Azərbaycan elmi və ədəbi mühiti tərəfindən dəyərləndirilmişdir.

Tarixi romanların mahiyyəti haqqında məlumat verəndə qeyd etmişdik ki, yazıçı tarixçidən fərqli olaraq, tarixi hadisələrin təsviri və

dəyərləndirilməsində, eyni zamanda öz yaratdığı obrazların cərəyan edən tarixi hadisələrin mərkəzinə daxil etməkdə, tarixi şəxsiyyətlərin şəxsi həyatının təsvirində sərbəstdir. Lakin İ.Pala yaradıcılığında əsər boyu Səfəvi hökmdarlarının yalnız mənfi obrazlarda canlanması bədii sərhədləri belə aşdığını göstərir. Bu isə oxucularda tarixi həqiqət və yaxud bədii əsər təsvirindən daha çox siyasi dəyərləndirmələrə gətirib çıxarır. Sözü gedən dövrün türk və islam tarixində yeri və buraxdığı izləri nəzərə alsaq, hesab edirik ki, bu mövzuda İsgəndər Pala xeyli ehtiyatsızlığa yol verməşdir.

Bu da nəzərə alınmalıdır ki, həm Avropa və şərq, həm də Türkiyə və müsəlman ölkələri tarixşünaslığında Səfəvi hökmdarları yanlış olaraq İran hökmdarları kimi təqdim olunurlar. Buna səbəb dövlətin əksər ərazilərinin, o cümlədən bir-birini əvəzləmiş paytaxtların bu günki İran dövləti ərzaisində olmasıdır. Buna görə, istər arxeoloji tapıntılar, istər yazılı mətnlər, tarixi hadisələr müasir tarixşünaslıqda İrana aid hesab olunur. Əlavə etməliyik ki, antik dövr yunan ənənəsindən qaynaqlanaraq, orta əsr və yeni dövr Avropa tarixşünaslığı İran ərazisini Persiya adlandırır və Persiya ilə İranı eyniləşdirir. Məhz bu səbəbdən də, əslində İ.Pala qavramında Şah İsmayıl və digər Səfəvi hökmdarları Azərbaycanın deyil, İranın sülaləsidir. Səfəvilərin etnik kökünü, Şah İsmayılın yetişdiyi mühitin, hakimiyyətinin mənbəyi olan tayfaların istisnasız türklərdən ibarət olması bir çox tarixçilərin əsərlərində dəfələrlə təsdiqlənməsinə, dövlətin mərkəzi və əsas güc mənbəyinin Azərbaycan olmasına baxmayaraq İ.Pala hakim olan klişelərdən qurtulmur və Səfəviləri İran hökmdarları hesab edir. Bu baxımdan İ.Pala əslində Azərbaycanla bağlı deyil, İranla bağlı yazır və onu Azərbaycan hömkdarlarını mənfi obrazda canlandırmaqda suçlaya bilmərik, belə bir niyyət İ.Pala təsəvvüründə Azərbaycana qarşı yönəlməmişdir. İ.Pala sözü gedən əsərlərdə Avropa tarixçilərinin təyin etdiyi Persiya-İran standarlarından qurtula bilmir, bir türk hökmdarı, türk dövləti haqqında yazdığını nəzərə almır.

Bu tip əsərlərin cəmiyyətimizi, onun mənəvi-siyasi dəyər və hədəflərini yönləndirə biləcəyini nəzərə alsaq, Sultan Səlim, İldırım Bəyazid, Şah İsmayıl, Şah Təhmasib, Əmir Teymur obrazlarının yaradılmasında olduqca ehtiyatlı davranmalı, ən azı bu adları birləşdirən cəhədlər üzərində də diqqətini cəmləməli idi. Bu hömdarlar

təkcə savaşmamış, həm də onların uzun illər dostluq və tərəfdaşlıq tarixləri vardır. Bu dəyərlər isə işıqlandırılmır. Lakin ədalət naminə deməliyik ki, yazıçı romanda Sultan Səlimin də qardaşları və əmisi oğlanlarını qətl etməsini, atası Sultan Bəyazidi hakimiyyətdən zorla məhrum etməsini, atasının ona qarğış etməsi və hətta ölümündə həmin qarğışın da yerinə yetməsi səhnələrindən söz açmışdır .

Qeyd etmək lazımdır ki, İ.Palanın Səfəvilərə münasibəti həm də öz dini hisslərindən, dərin inanclı müsəlman olmağından, hətta dini inancı səbəbindən şəxsi həyatı və karyerasında çətinliklərlə rastlaşmasından qaynaqlanır. Dindarlığı səbəbindən həm də məzhəb baxışları da əhəmiyyət kəsb edir.Yuxarıda istinad etdiyimiz "Şah və Sultan" əsərində məzhəb ayrılığından irəli gələn savaşların qlobal nəticələlərilə yanaşı, insan talelərini də məhv etməsi təsvir olunur. Romanda osmanlı sarayındakı sünnü məzhəbinə aid Canhüseyn və Səfəvi sarayındakı əkiz qardaşı şiə Ağahəsənin də şəxsi faciələri, ailə dramları təsvir olunur, qardaş qırğınlarının rəmzinə çevrilir. Ümumiyyətlə əsərdə məzhəb ayrılığının insanların talelərinə gətirdiyi faciələrin incə təsvirinə geniş yer verilmiş, əslində Şah və Sultanın saraylarının məhz bu səbəbdən düşmənçiliyə yuvarlanmaları da qabardılmışdır.

Bu xüsuslar Ə.Rəsulovun "Qalibi olmayan müharibə" adlı məqaləsində geniş təhlil edilmişdir.[22]

III fəslə aid edilən elmi nəticələr aşağıdakı elmi məqalələrdən ibarətdir[23]

Dissertasiyanın **"Nəticə"** hissəsində elmi qənaət və yekun mülahizələr öz əksini tapmışdır. Belə qənaətə gəlinmişdir ki, İsgəndər Pala romanlarında mövzuca rəngarənglik olsa da, formaca bənzərlik müşahidə olunmaqdadır. Belə ki, yazıçının romanları ümumi struktura

---

[22] Rəsulov Ə. Qalibi olmayan müharibə: Çaldıran savaşı. 525-ci qəzet, 15 iyun 2012-ci il, s.15-28.

[23] İ.Palanın "Babildə ölüm, İstanbulda eşq" romanında Füzulinin təsiri / Dil və ədəbiyyat, Bakı, 2015, №1(93), s. 170-173, Əliyeva S.Ə.İ.Pala yaradıcılığında Şah İsmayıl Xətai obrazı /AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Şərq araşdırmaları, Bakı, 2019, №1, s.120-123, Əliyeva S.Ə. İ.Pala yaradıcılığında Azərbaycan /İsmayıl Şıxlı yaradıcılığına həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda beynəlxalq konfrans, Bakı, 2019, s. 201-204.

malikdir. Bütün romanlar müxtəlif alimlərə oxudulmuş, müvafiq düzəlişlər edilmiş, ondan sonra oxucuların ixtiyarına verilmişdir. Hətta bəzi romanlarda elmi əsərlərdə olduğu kimi, istifadə edilmiş qaynaqlar da göstərilmişdir. Təbii ki, bu, ondan qaynaqlanır ki, İ.Pala yazıçı şəxsiyyəti ilə yanaşı, professordur və onun bədii yaradıcılığı da elmi mahiyyəti ilə diqqəti cəlb edir. Amma nə qədər belə bir texnikaya baş vursa da, İ.Pala yaradıcılığında tarixə birmənalı münasibət yer almır və müxtəlif tədqiqatlarda, romanlarındakı yanlışlıqlar göstərilir. İ.Palanın tarixi roman yaradıcılığı əsasən Osmanlı tarixi ilə bağlı romanlar, dini mövzularla, qədim mədəniyyətlə, müasir Türkiyə tarixi ilə, Azərbaycanla bağlı mövzulara bölmək olar.

İ.Palanın tarixi roman yaradıcılığı çox böyük bir zamanı və coğrafiyanı əhatə edir. Qədim Babilistandan islamın yayıldığı illərə, Osmanlı İmperiyasının qurulduğu dövrlərdən XIX əsrə qədərki, həmçinin Türkiyənin çağdaş dövrünü əhatə edən bu romanlar əslində müasir gəncliyi maarifləndirmək, tarixdən nəticə çıxarmağa və ibrət almağa səsləmək üçün yazılmışdır. Bu romanlarda cəmiyyətin bütün təbəqələrindən olan insanların obrazları yaradılmışdır. Belə ki, üsyançıdan tutmuş hökmdara qədər, sıravi döyüşmüdən sərkərdəyə, adi qızlardan tutmuş saray xanımlarına qədər müxtəlif tiplərin yer aldığı bu romanlarda İ.Pala tarix və müasirlik mövqeyindən çıxış etmişdir. İ.Pala, digər Türkiyəli tarixi roman yazıçıları kimi, Osmanlı dövrü türk tarixinə belə sıx- sıx müraciət etməsi qüdrətli Osmanlı imperiyasının çöküşündən sonra siyasi, iqtisadi və mənəvi baxımından sarsılmış Türkiyə cəmiyyətinin öz “ yaralarını” sarıması, yenidən güclənməsi istiqamətində addımlar atması, Türkiyə dövlətinin perspektivdə təsir dairəsini genişləndirməsi və keçmidəki şöhrətinin bərpası istiqamətində yürüməsindən irəli gəlirdi.

Bu dövrün ədəbiyyatı türk insanına Osmanlı imperiyasının əzəmətini bir daha xatırladır, cəmiyyət və dovlətin gələcək üfüqlərini cızırdı. Əslində ədəbiyyatda bu cür gedişlər keçmiş nəhəng imperiyalar qurmuş, depressiya dövrünü keçmiş və yenidən inkişafda olan cəmiyyətlərə xasdır.

Yazıçı qlobal tarixi hadisələr fonunda adi insanların həyatı, hiss və həyacanları, sevgi və nifrətlə bərabər, eşqi, məhəbbəti təsvir və tərənnüm edir. İ.Pala əsərlərinin təhlili göstərir ki, yazıçı türk, şərq və

dünya ədəbiyyatını da dərindən tanıyır. Xüsusilə şərq poeziyasının, əruz vəznli ədəbiyyatın, divan, məsnəvi üslubunun bilicisidir. Bütün əsərlərində tarixlə, müasirliklə, ideoloji və yüksək estetik yanaşmalarla yanaşı eşqi, məhəbbəti təsvir və tərənnüm edir.

Bu baxımdan İ.Pala ədəbiyyatını çoxşaxəli, geniş əhatəyə və mövzu rəngarəngliyinə malik hesab edə bilərik.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində əksini tapmışdır:**


1. Muxtarlı S. İ.Pala yaradıcılığında Yunus Əmrə obrazı // - Bakı: Filologiya məsələləri. -2013. №10, - s.347-352.
2. Muxtarlı S. İ.Palanın “Babildə ölüm, İstanbulda eşq” romanında Füzulinin təsiri //- Bakı: Dil və ədəbiyyat. – 2015. №1(93), - s. 170-173.
3. Muxtarlı S. İ.Palanın “Babildə ölüm, İstanbulda eşq” romanında Osmanlı-Səfəvi münasibətləri //-Bakı: Filologiya məsələləri. - 2015. №5, s. - 411-415.
4. Muxtarlı S. İ.Palanın “Əfsanə” romanlnda tarixi şəxsiyyətlər //- Bakı: Azərbaycan Dillər Universiteti. Elmi xəbərlər. - 2016. №1, - s. 194-197.
5. Muxtarlı S. İ. Palanın “Mehmandar” romanında Əyyub Sultanın obrazı // - Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Dokrorantların və gənc tədqiqatçıların XX respublika elmi konfransının materalları. – 2016. s. - 185-186.
6. Muxtarlı S.İskəndər Palanın bədii yaradıcılığında islam tarixinin əksi // - Bakı: Z.Bünyadovun xatirəsinə hərs olunmuş “Müasir şərqşünaslıq aktual problemləri” mövzusunda beynəlxalq elmi konfrans. - 2017 s. - 110-111.
7. Əliyeva S. İ.Pala yaradıcılığında Şah İsmayıl Xətai obrazı // - Bakı: AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Şərq araşdırmaları jurnalı. – 2019. №1. s.- 120-123.
8. Əliyeva S. Cümhuriyyət dönəmində tarixi roman janrı // - Bakı: Ə. Məmmədovun anandan olmasının 100 illiyinə həsr olunmuş

"Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfrans. - 2019. s. - 157-159.

9. Əliyeva S. İ.Pala yaradıcılığında Azərbaycan // - Bakı: İsmayıl Şıxlı yaradıcılığına həsr olunmuş "Filologiyanın aktual problemləri" mövzusunda beynəlxalq konfrans. – 2019. s. 201-204.
10. Алиева С. Художественное отображенное «Эпохи Тюльпанов» в романе Искандера Пала «Катрейи-Матем» // - Киевский национальный университет имени Тараса Шевченко, Язык и культура. – 2018. Выпуск 21, Том I (190). стр. - 138-144.
11. Əliyeva S. İsgəndər Palanın "Babildə ölüm, İstanbulda eşq" romanının dil və üslub xüsusiyyətləri // - Sumqayıt: "Elmlərarası inteqrasıya: linqvodidaktik, linqvokulturoloji və psixolinqvistik aspektlər" mövzusunda beynəlxalq konfrans. – 2019. s. - 437-439.
12. Aliyeva S. Iskender Pala as a propagandist of the Ottomon history // - Ужгород: Ужгородський Національний Університет Закарпатські філологічні студії. - 2020,№14. стр – 280-287
13. Aliyeva S. İnroduction of classical literature in the works of Iskender Pala // - Kayseri: USBIK 2020 online International social sciences congress. – 2020. s. - 244-254
14. Əliyeva S. İsgəndər Palanın yaradıcılığında Məhəmməd peyğəmbərin obrazı // - Kars: Ə.Haqverdiyevin anadan olmasının 150 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans XXI əsrdə elm və təhsil:nəzəriyyə və təcrübə. - 2020. s. - 83-86.

Dissertasiyanın müdafiəsi 13 iyun 2024-cü il tarixində saat $12.^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.18 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəhəri, H.Cavid prospekti,115, Akademiya şəhərciyi, Əsas bina, VII mərtəbə, akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun akt zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kitabxanasında tanış olmaq mümükündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası akad. Z. M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun rəsmi saytında yerləşdirilmişdir.

Avtoreferat 10 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2024

Kağızın formatı: A5

Həcm: 43745

Tiraj: 100